1. Hüququn xüsusi-hüquqi funksiyalarını göstərin:
   1. qadağanedici
   2. tənzimləyici
   3. səlahiyyətverici
   4. məcburedici
   5. mühafizəedici

A) 2, 5
B) 1, 3
C) 2, 4
D) 3, 5
E) 1, 4

2. Şəxsiyyətin cəmiyyətdəki yerinin hüquqi cəhətdən təsbit olunması hansı anlayışla ifadə olunur?

A) şəxsiyyətin hüquqi statusu
B) hüquq qabiliyyəti
C) fəaliyyət qabiliyyəti
D) hüquq subyektliliyi
E) şəxsiyyətin vətəndaşlıq statusu

3. Müqavilə mətninin autentikliyinin müəyyən edilməsi üsulları hansılardır?
1. ratifikasiya
2. şərti imza atma
3. inisial qoyma
4. təsdiq etmə
5. imzalama
6. qəbul etmə

A) 2, 3, 5
B) 1, 4, 6
C) 3, 4, 5
D) 1, 3, 6
E) 1, 4, 5

4. A adlı dövlət onunla sərhəddə yerləşən B adlı dövlətin ərazisinin hava hücumları ilə bombalanması məqsədilə özünə məxsus aviabazanı C adlı dövlətin sərəncamına vermişdir. A və C beynəlxalq hüququn hansı prinsipini pozmuşlar?

A) A güc tətbiq etməmək və ya güclə hədələməmək, C isə ərazi bütövlüyü prinsipini
B) A dövlətlərin suveren bərabərliyi, C isə xalqların öz müqəddəratını təyin etməsi prinsipini
C) A güc tətbiq etməmək və ya güclə hədələməmək, C isə dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipini
D) Hər ikisi xalqların öz müqəddəratını təyin etməsi prinsipini
E) Hər ikisi dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipini

5. Yenicə istifadəyə verilmiş Bakı-Quba yolundan istifadə edən A adlı şəxs onun hərəkətlərinin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda görməmiş və yolda sürət məhdudiyyətinin olmamasından sui-istifadə edərək saatda 190 km-lə hərəkət edərək yol kənarındakı ağaca çırpılmış və nəticədə A-nın yanında əyləşən B adlı şəxs aldığı xəsarətlərdən həlak olmuşdur. A-nın əməli:

A) ehtiyatsızlıqdan törədilmiş cinayət hesab olunur
B) özünəgüvənmə nəticəsində törədilmiş inzibati xəta hesab olunur
C) birbaşa qəsdlə törədilmiş cinayət hesab olunur
D) dolayı qəsdlə törədilmiş cinayət hesab olunur
E) şəxs heç bir hüquq pozuntusu törətməmişdir

6. A adlı ölkənin ərazisi onunla sərhəddə yerləşən B adlı ölkə tərəfindən blokadaya alınmışdır. A adlı ölkənin dövlət başçısı ölkənin bütün ərazisində hərbi vəziyyət elan etmiş və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində qanunverici orqanın təsdiqinə vermişdir. A adlı ölkənin dövlət başçısının qəbul etdiyi bu fərman:

A) Müvəqqəti hüquq normasıdır
B) Daimi hüquq normasıdır
C) Ümumi hüquq normasıdır
D) Definitiv hüquq normasıdır
E) Deklarativ hüquq normasıdır

7. Uzun müddət hüquq mühafizə orqanlarında müxtəlif vəzifələrdə çalışmış Əliyev Əli pensiyaya çıxdıqdan sonra elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin Kommentariyasının yazılmasında iştirak edərək həmmüəlliflərdən biri olmuşdur. Əliyev Əli hüquqi təfsirin hansı növü ilə məşğul olmuşdur?

A) Doktrinal (elmi) təfsir
B) Peşə təfsiri
C) Gündəlik (adi) təfsir
D) Autentik təfsir
E) Kazual təfsir

7. A dövlətinə məxsus hava gəmisi B adlı ölkəyə məxsus hava məkanına icazəsiz daxil olmuşdur. A, beynəlxalq hüququn hansı Konvensiyasının şərtlərini pozmuşdur?

A) Beynəlxalq mülki aviasiya haqqında 1944-cü il Çikaqo Konvensiyasının
B) BMT-nin Dəniz hüququ haqqında 1982-ci il Konvensiyasının
C) Açıq dəniz barəsində 1958-ci il Cenevrə Konvensiyasının
D) Beynəlxalq hava daşımalarına aid olan bəzi qaydaların unifikasiyası üzrə 1929-cu il Varşava Konvensiyasının
E) Hava gəmisində törədilən hüquq pozuntuları və bəzi digər aktlar haqqında 1963-cü il Tokio Konvensiyasının

8. Cümləni düzgün tamamlayan cavabı seçin.
Pasifizmin əksi … .

A) militarizmdir
B) materializmdir
C) eqoizmdir
D) idealizmdir

E) bürokratizmdir

9. Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın.
qələbə – məğlubiyyət; mükafat – ?
A) cəza
B) təşəkkür
C) bəyənmə
D) qiymətləndirmə
E) razılıq

10. Samirə, Aynurə və Aytən Nisənin ad gününə gedirdilər. İkisi tort, biri isə konfet almışdı. Samirə və Aynurə fərqli hədiyyələr almışdı. Aytən və Samirənin aldıqları hədiyyələr də fərqli idi. Ad gününə kimin nə aldığını müəyyən edin.
A) Aynurə və Aytən - tort, Samirə - konfet
B) Aynurə və Samirə - tort, Aytən - konfet
C) Samirə və Aytən - tort, Aynurə - konfet
D) Samirə - tort, Aynurə və Aytən - konfet
E) Aytən - tort, Aynurə və Samirə - konfet

11. Verilənlər arasındakı məntiqi əlaqəyə əsasən fərqli olanı müəyyən edin.
A) dəsmal
B) şalvar
C) palto
D) köynək
E) pencək

12. Hansı variantdakı sırası pozulmuş hərflərin bərpa olunmuş vəziyyəti birinci sözün sonu, ikinci sözün əvvəlidir?
ha ( ? ) ır
A) mma
B) ədm
C) arm
D) fdə
E) sək